# QEYRİ-FORMAL VƏ İNFORMAL TƏHSİLİN TANINMASI: RUMINİYA TƏCRÜBƏSİ



**Kəmalə Səmədzadə,**
*Azərbaycan Respublikası Təhsil İnstitutunun*
*Peşə təhsili və ömürboyu təhsil şöbəsinin baş mütəxəssisi*
*e-mail: k.samadzada@arti.edu.az*

**UOT**: 37

**Xülasə.** *Məqalədə Rumıniyada qeyri-formal və informal təhsilin tanınması prosesinin həyata keçirilməsindən, daha ətraflı desək, ərizəçinin sənədlərinin təqdim edilməsindən sertifikatın əldə olunmasına qədər olan proseslərdən bəhs edilir.*

***Açar sözlər:*** *qeyri-formal təhsil, informal təhsil, ömürboyu təhsil, QFİTT, Milli Kvalifikasiyalar Çərçivəsi, səriştə, Rumıniya.*
***Key words:*** *non-formal education, informal education, lifelong learning, NFIET, National Qualifications Framework, competence, Romania.*
***Ключевые слова:*** *неформальное образование, информальное образование, обучение на протяжении всей жизни, QFITT, Национальная рамка квалификаций, компетентность, Румыния.*

İnsanların öyrənmə prosesinin mütəmadi, davamlı, müxtəlif metod və üsullarla həyata keçirilmə imkanlarını təsbit edən müasir təhsil paradiqması təhsilin ***formal, qeyri-formal və informal yollarla*** əldə edilə biləcəyini qəbul edir. **Formal təhsil** dedikdə, beynəlxalq təhsil ictimaiyyəti tərəfindən sistemli və təşkilatlanmış şəkildə icra olunan, strukturlaşmış quruluşa malik, müəyyən normativ qaydalara əsasən idarə olunan, təhsil haqqında dövlət sənədinin verilməsi ilə başa çatan təhsil forması başa düşülür. **Qeyri-formal təhsil** müxtəlif kurslarda, dərnəklərdə və fərdi məşğələlərdə əldə edilən, formal təhsil sistemindən kənarda təşkil edilən, planlaşdırılmış təlim fəaliyyəti olub, əsas etibarilə yaşlıların təhsili və təlimlərin təmin edilməsindən ibarət öyrənmə formasıdır. **İnformal təhsil** isə özünütəhsil yolu ilə biliklərə yiyələnmə formasıdır ki, bu hər hansı sistemli struktura malik deyil, bilik və bacarıqlar, həyat və iş təcrübəsi, yaxud da təcrübə və özü öyrənmə yolu ilə əldə edilir.

İnformal və qeyri-formal təhsili formal təhsildən fərqləndirən başlıca xüsusiyyətlərdən biri yekunda dövlət tərəfindən təhsil sənədi ilə təsdiq edilməməsidir. Zamanla qeyri-formal təhsilin miqyasının artması ayrı-ayrı şəxslərdə öyrənmə nəticələrinin tanınmasına ehtiyac yaradır. Qloballaşma, miqrasiya proseslərinin sürətlənməsi, rəqəmsal texnologiyaların inkişafı və rəqəmsal cəmiyyətə keçid kimi proseslər qeyri-formal və informal üsullarla əldə edilmiş kompetensiyaların tanınmasını aktuallaşdırır. İnsanlar formal təhsildənkənar əldə etdikləri bilik və bacarıqlarını təsdiq edə, əmək bazarında işəgötürənlər tərəfindən qəbul edilə bilmək üçün dövlət təsdiqi

olan sənədə ehtiyac duyurlar. Məhz əmək bazarının tələbləri əsasında 1984-cü ildə ilk dəfə Fransada təcrübəsinə başlanılan "Qeyri-formal və informal təhsilin tanınması" prosesi sürətlə digər ölkələrə də yayılmağa başladı. Prosesin əhəmiyyətini diqqətə çatdırmaq üçün qeyd edə bilərik ki, Fransada sistemli şəkildə təşkil edilən bu proses zamanı 2002-ci ildən etibarən 358.000 nəfərdən artıq şəxsə QFİTT üzrə dövlət sertifikatları verilmişdir ki, onların da 73%-i qadınlardır. Tanınmadan (sertifikasiyadan) uğurla keçən şəxslərin 74%-i əmək fəaliyyəti ilə məşğuldur. Fransada QFİTT prosesi müsahibə və debatlarla müşayiət olunan portfolio metodundan istifadə edilməklə aparılır. Prosesdə iştirak edən şəxsin dilindən: *"Otağa daxil olanda orada məni 5 nəfərlik qiymətləndirmə komissiyası gözləyirdi. Özlərini təqdim etdilər və vəzifələri haqqında danışdılar. Daha sonra mən öz təhsilim və iş təcrübəm haqqında qısa danışdım. İş yerindəki vəzifə və tapşırıqlarımı təqdim etdim. Son hissə ən çətin hissə idi: qiymətləndirmə komissiyası ilə müzakirə. Burada güclü xarakterin olduğunu və işə yanaşmanı göstərməlisən. Məqsəd iş yerindəki vəzifə və tapşırıqlarını aydın şəkildə başa düşdüyünü nümayiş etdirməkdir. Eyni zamanda bu vəzifə və tapşırıqları yerinə yetirmək üçün hansı səriştələr lazımdırsa, onları göstərməlisən".*

Qeyri-formal və İnformal Təhsilin Tanınması (QFİTT) sistemi insanların formal təhsildən kənarda yiyələndikləri bacarıqları dəyərləndirməyə kömək edir. Sistem kvalifikasiyası olmayan işçilərə qanunla tənzimlənən əmək bazarında iştirak etmək, o cümlədən işəgötürənlərə mövcud və potensial işçilərin bacarıqlarını daha yaxşı müəyyən etmək imkanı verir. Bir sıra Avropa ölkələrində, o cümlədən Fransa, Norveç, Belçika, Danimarka, Türkiyə, Portuqaliya, Rumıniya, Polşa, Slovakiyada QFİTT prosesi milli səviyyədə həyata keçirilir.

Keçmiş sosialist düşərgəsi ölkələrindən olan Rumıniyada qeyri-formal və informal təhsilin tanınması sisteminin qurulması təhsildə oxşar inkişaf yolu keçən ölkəmiz üçün faydalı nümunədir. Rumıniyada qeyri-formal və informal təhsilin tanınması ömürboyu təhsil siyasətinin bir hissəsi olub, milli kvalifikasiyalar sisteminin qurulması istiqamətində ölkənin uğurlu təcrübəsini formalaşdırmışdır. Hazırda mövcud qeyri-formal sistem formal təhsil sisteminə paralel olaraq fəaliyyət göstərir və hər ikisi arasında keçid hələ də inkişaf mərhələsindədir. Ölkədə 2004-cü ildən etibarən QFİTT prosesinin başlanmasına rəğmən, hazırda qeyri-formal və qeyri-rəsmi öyrənmənin təsdiqi yolu ilə formal ixtisasları (tam və ya qismən) əldə etmək mümkün deyil. Prosesin başladığı tarixdən 2019-cuilədək 100 mindən çox insan tanınma prosesindən keçmişdir. İllər üzrə dinamikaya baxdıqda 2017-ci ildə 8096 nəfər (75,7% kişilər, 24,3% qadınlar), 2018-ci ildə 8760 nəfər (71,3% kişilər, 28,7% qadınlar), 2019-cu ildə isə 7425 nəfərin (70,75% kişilər, 29,25% qadınlar) tanınma prosesindən keçdiyini müşahidə edirik (***cədvəl 1 və cədvəl 2***).

***Cədvəl 1. 2016-2019-cu illərdə ərizəçilərin sayı***

| İllər | Say |
|---|---|
| 2016 | 7865 |
| 2017 | 8096 |
| 2018 | 8760 |
| 2019 | 7425 |

***Cədvəl 2. 2017-2019-cu illərdə ərizəçilərin cinsiyyət üzrə faiz göstəricisi***

| % | 2017 | 2018 | 2019 |
|---|---|---|---|
| Kişi | 75,70 | 71,30 | 70,75 |
| Qadın | 24,30 | 28,70 | 29,25 |

Rumıniya QFİTT təcrübəsini araşdırdığımız zaman ölkənin ümumi təhsil sistemi ilə tanış olmaq əhəmiyyətlidir. 2013-cü ildə qəbul edilmiş Rumıniya Milli Kvalifikasiyalar Çərçivəsinə əsasən, təhsilin ibtidai təhsil pilləsindən başlayaraq ali təhsilin bütün səviyyələrini ehtiva etməklə 8 kvalifikasiya səviyyəsi müəyyənləşdirilmişdir. İbtidai təhsil 4-cü sinfədək davam edir, sonra təhsilalanlar daha 4 ili əhatə edən orta təhsili tamamlayırlar. Orta təhsili bitirən tələbələr 2 il müddətinə ilkin kollec təhsili, yaxud eyni müddət davam edən subbakalavr təhsili ala bilirlər. Rumıniya Milli Kvalifikasiyalar Çərçivəsinin beşinci səviyyəsi bakalavr, altıncı səviyyəsi Post-Grad təhsilini (magistraturaya hazırlıq) əhatə edir. Ali təhsilin magistratura və doktorantura səviyyələri müvafiq olaraq 7 və 8-ci səviyyələrdə qərarlaşmışdır. Aşağıdakı cədvəldə təhsilin səviyyələri daha ətraflı göstərilmişdir (***cədvəl 3***).

*Cədvəl 3. Milli Kvalifikasiyalar Çərçivəsi üzrə təhsil səviyyələri*

| Səviyyələr | Təhsil pilləsi/səviyyəsi |
|---|---|
| Səviyyə 1 | İbtidai təhsil (təhsil müddəti başlayandan 4-cü sinfə qədər davam edir) |
| Səviyyə 2 | Orta təhsil (4 il davam edir+2 il) |
| Səviyyə 3 | İlkin kollec təhsili (2 il ərzində davam edir) |
| Səviyyə 4 | Subbakalavr (2 il ərzində davam edir) |
| Səviyyə 5 | Bakalavr (3-5 il ərzində davam edir) |
| Səviyyə 6 | Post-Grad (magistraturaya hazırlıq 1,5 il ərzində davam edir) |
| Səviyyə 7 | Magistratura (1,5-2 il ərzində davam edir) |
| Səviyyə 8 | Doktorantura (4 il ərzində davam edir) |

Ölkə miqyasında qeyri-formal və informal təhsilin tanınması prosesinə Rumıniya Təhsil Nazirliyinin koordinasiya etdiyi Milli Kvalifikasiyalar Təşkilatı məsuldur. Milli Kvalifikasiyalar Təşkilatı (MKT) QFİTT üzrə siyasətin formalaşdırılması və qanunvericilik sənədlərinin hazırlanmasına, bu qurumun tərkibinə daxil olan Milli Akkreditasiya Mərkəzi isə ayrı-ayrı qiymətləndirmə mərkəzlərinin qiymətləndirilməsi və sertifikasiya edilməsinə cavabdehdir. QFİTT prosesi bilavasitə akkreditasiya edilmiş "Qiymətləndirmə mərkəzləri" tərəfindən həyata keçirilir. Bütün ölkə ərazisində, ümumilikdə 37 qiymətləndirmə mərkəzi mövcuddur. Prosesin həyata keçirilməsi qaydalarını Əmək Nazirliyi təsdiq edir. Akkreditasiyada isə həm Təhsil, həm də Əmək Nazirliyi iştirak edir.

Qiymətləndirmə mərkəzləri tərəfindən QFİTT prosesinin həyata keçirilməsi, adətən aşağıdakı mərhələlər üzrə aparılır:

– *qeydiyyat;*

– *nəzəri biliklərin qiymətləndirilməsi;*

– *praktiki bacarıqların qiymətləndirilməsi;*

– *dolayı qiymətləndirmə;*

– *nəticələrin toplanılması və qeydiyyatı;*

– *geri bildirim prosesinin aparılması (izlənilməsi).*

**Qeydiyyat prosesi** zamanı QFİTT prosesindən keçmək üçün müraciət edən namizəd sənədlərini qiymətləndirmə mərkəzinə təqdim edir və qeydiyyatdan keçir. Sənədlərin təqdim olunması prosesində ***"məsləhət xidməti"*** mərhələsi vardır ki, bu zaman namizəd qiymətləndirmə mərkəzinə gələrək ekspertlərlə görüşür, ekspertlər öz növbələrində namizədlərə QFİTT prosesi ilə bağlı lazım ola biləcək bütün məlumatları təqdim edirlər. Hər bir namizədlə fərdi görüş keçirilir. Müraciət edən hər 30 nəfər üçün bir məsləhətçi ayrılır ki, onlar da insan resursları bölməsinin əməkdaşlarıdır. Sənədlərin qeydiyyatı və arxivləşdirilməsi işlərinə katib, təqdim olunan sənədlərin düzgünlüyünün yoxlanılmasına isə nəzarətçi məsuldur.

Namizədin sənədlərinin nəzərdən keçirilməsi, öz növbəsində **iki** mərhələdən ibarətdir. **Birinci,** texniki hissədə sənədlərin düzgünlüyü yoxlanılır. **İkinci,** test hissəsində isə qiymətləndirmə alətlərinin özü yoxlanılır. Qiymətləndirmə alətləri optimal, hər kəs tərəfindən anlaşılan və aydın formada hazırlanmalıdır. Müvafiq sahədə bakalavr diplomu və son 5 ildə ikiillik iş təcrübəsi olan şəxslər qiymətləndirici ekspertlərin qiymətləndirilməsini həyata keçirirlər.

**Nəzəri biliklərin qiymətləndirilməsi** mərhələsində ekspertlər tərəfindən hazırlanan suallardan ibarət test imtahanı təşkil olunur. Rumıniyadakı qaydalara əsasən, nəzəri biliyin qiymətləndirildiyi otaq mütləq şəkildə videokamera nəzarətində olmalıdır. Nəzəri sualların sayı səriştədən asılı olaraq dəyişir. Əsas səriştələr (Avropa Kvalifikasiyalar Çərçivəsi üzrə 8 əsas səriştə), ümumi səriştələr və spesifik, yəni bilavasitə peşə səriştələrinin hər birinin qiymətləndirilməsi üzrə suallar hazırlanır.

**Praktiki bacarıqların qiymətləndirilməsi** mərhələsində simulyasiya metodundan istifadə olunur. Namizədlər üçün iş şəraiti yaradılır və kənardan müşahidə yolu ilə izlənilirlər. Bu mərhələdə də öncəki mərhələdə olduğu kimi, videokamera ilə prosesin çəkilməsi vacibdir. Hər kvalifikasiya üçün 2 ekspert işə cəlb olunur. Namizədin qiymətləndirmə prosesinin gedişatı ilə bağlı narazılığı olduğu zaman bir qiymətləndiricinin işinə digər qiymətləndirici baxmalıdır. Bundan savayı, qiymətləndirici namizədi real iş mühitində müşahidə edərək də QFİTT prosesini apara bilər ki, bunun üçün öncədən hazırlıqlar görülməli və ərizəçiyə məlumat verilməlidir.

**Dolayı qiymətləndirmə** mərhələsinə namizədə əvvəlki işəgötürənin verdiyi tövsiyə məktubu və namizədin təcrübəsini təsdiq edən işlərindən ibarət portfelin qiymətləndirilməsi daxildir.

QFİTT prosesinin qiymətləndirilməsində qərarvermə zamanı əsas rolu birbaşa qiymətləndirmə – nəzəri biliklərin və praktiki bacarıqların qiymətləndirilməsi oynayır. Dolayı qiymətləndirmə nəticələrə cüzi təsir göstərir. Qeyd olunan proseslərdən uğurla keçən namizədlər sonda

QFİTT diplomu ilə təltif olunurlar.

**Nəticələrin toplanması və qeydiyyatı** mərhələsində hər namizədin malik olduğu bilik, bacarıq, səriştə və təcrübəsinin aidiyyəti ixtisas üzrə kvalifikasiya standartlarına uyğunluğunun müəyyənləşdirilməsi və qiymətləndirilməsi üçün nəticələri toplanılır, qeydiyyatı aparılır.

**Geribildirim prosesinin aparılması (izlənilməsi)** mərhələsində yekun nəticələr sonda müsbət və ya mənfi olaraq komissiya tərəfindən qiymətləndirilir, rəy geribildirim şəklində namizədə göndərilir. Mənfi rəy verilmiş geribildirim zamanı namizəd özünün zəif və çatışmayan bacarıqlarını inkişaf etdirərək iş təcrübəsini təkmilləşdirib yenidən QFİTT-ə prosesinə qatıla bilər. Müsbət rəy almış namizədə isə yekunda aidiyyəti təhsil sənədi – QFİTT diplomu təqdim olunur.

QFİTT üzrə qiymətləndirmə mərkəzində daxili keyfiyyətin təminatına birbaşa mərkəzin rəhbəri cavabdehlik daşıyır. Etibarlı qiymətləndirmə mərkəzlərində beynəlxalq İSO 9001:2008 keyfiyyətə təminat idarə sistemi istifadə edilir. Qiymətləndirmə mərkəzinin xarici keyfiyyət təminatına Milli Kvalifikasiyalar Təşkilatı, həmçinin əmək bazarı tərəfindən nəzarət olunur.

Artıq iki ilə yaxındır ki, ölkəmizdə də qeyri-formal və İnformal Təhsilin Tanınması prosesinə start verilmişdir. QFİTT Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 5 avqust tarixli, 279 nömrəli Qərarı ilə təsdiq edilmiş qayda əsasında tənzimlənir və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfindən bu proses qeyd olunan 12 ixtisas üzrə həyata keçirilməkdədir: *“bərbər”, “bağban-dekorator”, “qənnadıçı-şirniyyatçı”, “tikiş avadanlıqlarının operatoru”, “baytar-texniki”, “mobil telefonların təmiri ustası”, “plastik boru qaynaqçısı”, “ərzaq və qeyri-ərzaq mallarının satıcısı, nəzarətçi-xəzinədar”, “elektrik qaz qaynaqçısı”, “turizm sahəsində iaşə üzrə mütəxəssis”, “avtomobillərin təmiri üzrə çilingər və aşpaz”.*

Mövcud qaydalara görə, ümumi orta təhsil səviyyəsini ən azı 4 (dörd) il əvvəl və ya tam orta təhsil səviyyəsini ən azı 2 (iki) il əvvəl bitirərək müraciət etdiyi müvafiq ixtisas üzrə azı 2 (iki) il qeyri-formal və informal təhsil formaları vasitəsilə bilik, bacarıq, səriştə və təcrübə əldə edən vətəndaşlar qiymətləndirilmə və tanınma üçün Təhsildə Keyfiyyət Təminatı Agentliyinə müraciət edə bilərlər.

Qiymətləndirmə prosesi Qiymətləndirmə Komissiyası tərəfindən həyata keçirilir. Qiymətləndirmə Komissiyasının tərkibi: Təhsildə Keyfiyyət Təminatı Agentliyinin nümayəndəsi (1 nəfər) (eyni zamanda komissiyanın sədri təyin olunur), Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nümayəndəsi (1 nəfər), İşəgötürənlərin nümayəndəsi (1 nəfər) və sahə üzrə ekspertdən (ixtisas üzrə ən azı 5 il iş təcrübəsi olan) ibarətdir. Komissiyanın qərarı Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfindən təsdiq edilir. QFİTT qiymətləndiriciləri QFİTT prosesi haqqında məlumatlı olmalı, təlim nəticələrinə və QFİTT standartlarına uyğunluğa dair namizədlərə məlumat verməli, namizədlərdə etibar hissi və müvafiq psixoloji vəziyyət yaratmalı, qiymətləndirmə metodologiyalarını bilməli, peşə etikasına uyğun fəaliyyət göstərməlidirlər.

Azərbaycanda qiymətləndirmə və tanınma ilə bağlı prosedur **4** mərhələdən ibarətdir:

***Qeydiyyat*** mərhələsində qiymətləndirmə və tanınma üçün müraciət elektron qaydada həyata keçirilir və bütün sənədlər elektron poçt vasitəsilə qfitt@tkta.edu.az göndərilir. Məktub və ya şəxsən təqdim olunan sənədlər icraata götürülmür. Müraciətlə bağlı yeniliklər (ərizənin cari statusu, qiymətləndirmə və tanınmanın keçirilmə vaxtı, yeri və nəticəsi) elektron poçt vasitəsilə bildirilir.

***İlkin baxış (müsahibə)*** mərhələsində təqdim edilmiş sənədlərin (materialların) qiymətləndirilməsi zamanı zərurət yarandığı təqdirdə ərizəçilərlə müsahibə keçirilir. Müsahibədə aşağıdakı məlumatlar əldə edilir:

*– müraciət etdiyi sahə üzrə nəzəri və praktiki biliklər barəsində məlumat;*

*– nəzəri və praktiki biliklərin əldə olunması formasına dair məlumat;*

*– nəzəri və praktiki biliklərin tətbiqi imkanları və müddətləri haqqında məlumat.*

***Biliklərin qiymətləndirilməsi*** mərhələsi üçün müvafiq ixtisas üzrə test imtahanı aparılır. Test imtahanı kağız daşıyıcıları və ya kompüter vasitəsilə həyata keçirilir. Ərizəçiyə hər bir modul üzrə 10 sual verilir və hər bir düzgün cavab 1

(bir) balla qiymətləndirilir. Ərizəçiyə sualların cavablandırılması üçün 60 dəqiqə vaxt verilir. Əlilliyi olan şəxslərin imtahan vaxtına 15 dəqiqə əlavə olunur və onların imtahanda iştirakı üçün əlverişli şərait yaradılır. Sualların 50%-dən çoxunu düzgün cavablandıran ərizəçi bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi mərhələsinə buraxılır.

***Bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi*** mərhələsi üçün müvafiq ixtisas üzrə tapşırıqvermə üsulu ilə praktiki imtahan həyata keçirilir. Praktiki imtahanda tapşırıqların yerinə yetirilməsi üçün adətən vaxt məhdudiyyəti tətbiq edilmir, lakin bəzi ixtisas modullarından asılı olaraq Qiymətləndirmə Komissiyası tərəfindən əvvəlcədən vaxt intervalı müəyyənləşdirilə bilər. Praktiki imtahan Qiymətləndirmə Komissiyası tərəfindən müvafiq qeydlər aparılmaqla qiymətləndirilir. Tapşırıqların ən azı 50%-ni düzgün yerinə yetirən ərizəçinin nəticəsi məqbul hesab edilir.

**Nəticə.** Azərbaycanda QRİTT prosesi hazırda mərkəzləşdirilmiş qaydada aparılsa da, gələcəkdə kütləviləşməsinin perspektivlərini nəzərə alaraq Rumıniya təcrübəsindən yararlanmaq məqsədəuyğundur.

## ƏDƏBİYYAT


1. Analysis on the VNFIL data in Romania. Proceedings in Manufacturing Systems, 14, issue 4, 2019, pp.135-140.

2. Romania European inventory on NQF 2018, Cedefop, 2019.

3.https://m.facebook.com/100065086530352/

4.keszei.chem.elte.hu/Bologna/Romania_Law_of_National_Education.pdf?fbclid=IwAR01tbuCeNtSf_pWJXKoTQH-TvK8QJhoLzjVzbR8jFw-PB4caL7EQo0R548

5.https://www.tkta.edu.az/p/informal-education

6. European inventory on validation of non-formal and informal learning. 2018, Country Report: France.

7. L'orientation scolaire et professionnelle 30/1/2001 Incertitudes professionnelles, conduites d'orientation ou d'insertion et nouveaux rapports au travail.


**K.Samadzade**

### Recognition of non-formal and informal education: Romanian experience

**Abstract**

The article deals with the implementation of the process of recognition of non-formal and informal education in Romania, more specifically, the processes from the submission of the applicant's documents to the obtaining of the certificate.

**К.Самедзаде**

### Признание неформального и информального образования: опыт Румынии

**Аннотация**

В статье рассказывается о реализации процесса признания неформального и информального образования в Румынии, а именно о процессах от подачи документов абитуриентом до получения сертификата.